

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 142 (23.053)

31 iyul 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 30-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunaraq, bu yaxınlarda Brüsselə səfərini xatırlayaraq qeyd edib ki, həmin səfər zamanı aparılan səmərəli danışıqlar və Azərbaycanla Avropa İttifaqı arasında "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması əməkdaşlığın gələcək inkişafı üçün önəmlidir.

Söhbət zamanı əməkdaşlığın perspektivləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər, nəqliyyat, ticarət, turizm sahələrində əlaqələrin inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

## M.M.Seyidovun Naxçıvan Muxtar Respublikasının Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Mirsənani Mirsaleh oğlu Seyidov Naxçıvan Muxtar Respublikasının Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 30 iyul 2018-ci il*

## V.Ş.Səfərovun Naxçıvan Muxtar Respublikasının Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Şəmsəddin oğlu Səfərov Naxçıvan Muxtar Respublikasının Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 30 iyul 2018-ci il*

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2018-ci ilin iyun-iyul aylarında bir sıra qərarlar qəbul etmişdir.

Nazirlər Kabinetinin 2018-ci il 4 iyun tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin daxili intizam Qaydaları"nda, "Naxçıvan Muxtar Respublikasında gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"nda, "Texniki nəzarətin həyata keçirilməsinin tələb olunmadığı tikinti obyektlərinin siyahısı"nda, 9 iyun tarixli qərarları ilə "Naxçıvan İpoteka Fondu"Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına verilən ipoteka kreditləri üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması Qaydası"nda, "Elektron xidmət növlərinin Siyahısı"nda və 13 iyun tarixli qərarı ilə "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə dəyişikliklər edilmişdir.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2018-ci il 14 iyun tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Naxçıvan Yun Tədarükü və Qəbulu İdarəsi yaradılmış, 22 iyun tarixli qərarı ilə "İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası"nda və 28 iyun tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 2 fevral tarixli 17 nömrəli qərarında dəyişikliklər edilmişdir.

Nazirlər Kabinetinin 2018-ci il 7 iyul tarixli qərarları ilə "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına buğda və çəltik səpininə və istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların, habelə hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan mineral gübrələrin, biohumusun və pestisidlərin qiymətinə tətbiq edilən güzəştin məbləğinin ödənilməsinin təmin edilməsi üzrə Naxçıvan Muxtar Respublika Komissiyasının tərkibi"ndə, "Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin Ehtiyat Fondunun vəsaitindən istifadə Qaydaları"nda, "Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsi"ndə və Nazirlər Kabinetinin 2018-ci il 10 iyul tarixli qərarı ilə "Məhsul ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası"nın, "İxrac təşviqi şamil olunacaq məhsulların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı"nın və "Məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq Əmsallar"ın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 25 oktyabr tarixli 102 nömrəli qərarında dəyişikliklər edilmişdir.

Bununla yanaşı, Nazirlər Kabineti 2018-ci il 13 iyul tarixdə "Naxçıvan Şəhər Abadlıq və Təmir Tikinti İdarəsinin tabeliyinin dəyişdirilməsi haqqında" Qərar qəbul etmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar. nakhchivan.az*) tanış olmaq mümkündür.

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



*Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyində keçirilən kollegiya iclasında çıxış edən muxtar respublikanın Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov bildirib ki, 2018-ci ilin birinci yarısında komitənin xətti ilə 66,1 milyon manatlıq inşaat işləri yerinə yetirilib. Bunun da 63,5 milyon manatını və ya 96,1 faizini yalnız tikinti-quraşdırma işləri təşkil edib.*

Qeyd olunub ki, 2018-ci ilin ilk 6 ayı ərzində Naxçıvan şəhər Qaraxanbəyli kəndində 480, Şərur rayon Ərəbyengicə kəndində 208, Culfa rayon Dizə kəndində isə 234 şagird yerlik tam orta məktəb binalarının tikintisi, Naxçıvan Müəllimlər İnstitutu binasının isə yenidən qurulması başa çatdırılaraq istifadəyə verilib. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin, Naxçıvan Şəhər Tibb Kollecinin, Naxçıvan Şəhər Polis Məktəbinin, Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin, Şərur rayon Kosacan, İbadulla, Kərimbəyli, Babək rayon Aşağı Buzqov, Yuxarı Buzqov, Culfa rayon Qazançı, Ordubad rayon Dəstə kəndlərində yerləşən məktəb binalarının tikintisi və ya yenidənqurma işləri isə davam etdirilir.

Komitə sədri bildirib ki, cari ilin ilk 6 ayı ərzində Naxçıvan şəhər "N" hərbi hissədə xəstəxana, Şərur rayon Ərəbyengicə kəndində həkim ambulatoriyası binasının tikintisi və Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası binasının yenidən qurulması başa çatdırılaraq istifadəyə verilib. Naxçıvan Qarnizonunun Hərbi xəstəxanası, Şərur şəhərində Uşaq Poliklinikası, Şərur rayonunda İbadulla, Kərimbəyli, Babək rayonunda Aşağı Buzqov, Ordubad rayonda Dəstə kəndlərində həkim ambulatoriyası binalarının tikintisi və ya yenidən qurulması davam etdirilir.

Qeyd olunub ki, hesabat dövründə Culfa rayonunun Dizə, Şərur rayonunun Ərəbyengicə kəndlərində inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin binalarının tikintisi, Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin inzibati binasının isə yenidən qurulması başa çatdırılaraq istifadəyə verilib. Şərur rayonda Ərəbyengicə və Culfa rayonda Dizə kəndlərində xidmət mərkəzi binalarının tikintisi tamamlanıb. Şərur rayonunun İbadulla, Kosacan, Kərimbəyli, Culfa rayonunun Qazançı, Babək rayonunun Yuxarı Buzqov, Aşağı Buzqov, Ordubad rayonunun Dəstə kəndlərində xidmət mərkəzlərinin tikintisi işləri isə davam etdirilir.

Sonra iclasda çıxış edən Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru Bəhruz Əsgərov bildirib ki, hesabat dövründə Şərur rayonunda asfalt-beton zavodunun quraşdırılması başa çatdırılıb. Naxçıvan-Sədərək avtomobil yolunda, həmçinin muxtar respublikanın rayondaxili avtomobil yollarında cari təmir, şəhərdaxili avtomobil yollarında isə asfalt-beton işləri görülüb, kənddaxili yollarda yenidənqurma işləri davam etdirilib.

Sonra digər çıxışlar dinlənilib.

*Naxçıvan televiziyasında keçirilən iclasda 2018-ci ilin birinci yarısında görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib.*

İclasda çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı "Tədbirlər planı"nın təsdiq edilməsi barədə" 2018-ci ilin 6 fevral tarixində imzaladığı Sərəncamın teleradionun inkişafında müstəsna əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, Tədbirlər Planının icrası çərçivəsində ən müasir yayım və çəkiliş avadanlıqları alınıb, yeni yaradıcılıq redaksiyaları təşkil olunub. Aprel ayında Naxçıvanın ilk rəsmi informasiya agentliyi olan "Nuhçıxan" İnformasiya Agentliyi fəaliyyətə başlayıb, televiziyanın mütəxəssisləri tərəfindən agentliyin yeni internet saytı hazırlanıb. Televiziyada ilk dəfə Xalq Çalğı Alətləri Ansamblı yaradılıb.

İyun ayının 15-dən televiziyanın və radionun efir vaxtlarının daha bir saat artırılaraq 19 saata çatdırıldığını vurğulayan komitə sədri kinooperatorlara ustad dərslərinin keçilməsi üçün Bakı şəhərindən mütəxəssis dəvət olunmaqla praktik təlimlərə başlanıldığını bildirib. Qeyd olunub ki, artıq televiziyanın "Xəbərlər" proqramı Azərbaycan dili ilə yanaşı, ingilis dilində də yayımlanır. Avqust ayından isə xəbərlər rus dilində də tamaşaçılara təqdim ediləcək.

Komitə sədri beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında kütləvi informasiya vasitələrinin, o cümlədən televiziya və radionun da qarşısında bir sıra tapşırıqların qoyulduğunu diqqətə çatdırıb. Sahil Tahirli deyib ki, informasiya-məlumatlandırma işinin səmərəli təşkili, sosial şəbəkələrdə ictimaiyyətin düzgün istiqamətləndirilməsi işi bundan sonra da sistemli şəkildə davam etdiriləcək.

Komitənin Proqram direksiyasının direktoru İlkin Rzayev, "Nuhçıxan" İnformasiya Agentliyinin baş redaktoru Səməd Canbaxşıyev, televiziyanın İctimai-siyasi məsələlər redaksiyasının baş redaktoru Ramal Məmişov, radionun İctimai-siyasi verilişlər redaksiyasının baş redaktoru Məhəmməd Fərəcov görülən işlər barədə məlumat veriblər. Bildirilib ki, ötən 6 ayda televiziyada yüzlərlə film və veriliş hazırlanıb, tamaşaçı və dinləyicilərə operativ informasiyalar çatdırılıb, ünvanlı proqram siyasəti həyata keçirilib.

İclasın sonunda 2018-ci ilin ikinci yarısında görüləcək işlər müzakirə edilib və redaksiyalar üzrə konkret fəaliyyət istiqamətləri müəyyənləşdirilib.

**Xəbərlər şöbəsi**

# Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



***Şərur Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci çağırış səkkizinci sessiyasında qarşıya qoyulan vəzifələr və 2018-ci ilin birinci yarımilində rayonun sosial-iqtisadi inkişafı barədə rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov məruzə edib.***

Bildirilib ki, hesabat dövründə Ərəbyengicə kəndində bir sıra sosial obyektlər istifadəyə verilib. Hazırda İbadulla, Kərimbəyli və Kosacan kəndlərində məktəblər, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası və digər obyektlər inşa olunur, rayon mərkəzində Tarix-Diyarşünaslıq Muzeyi, Naxçıvan Avtomobil Zavodunun Texniki Servis Mərkəzi, uşaq poliklinikası tikilir. Kapitan Seyidov küçəsindəki 7 nömrəli beşmərtəbəli yaşayış binasının əsaslı təmiri, Yengicə kəndində XVIII əsrə aid hamamın bərpası, Vərməziyar-İbadulla-Qışlaqabbas-Ərəbyengicə və Siyaqut-Kosacan kəndlərini birləşdirən avtomobil yollarına asfalt örtüyün salınması işləri davam etdirilib.

Qeyd olunub ki, rayonda 2018-ci ilin məhsulu üçün 17 min 115 hektar sahədə əkin keçirilib. Bunun 4 min 348 hektarını buğda və arpa təşkil edir. Kənd təsərrüfatının bütün sahələrində məhsuldarlıq intensiv amillər hesabına artırılıb. Bunun nəticəsində altı ay ərzində 49 milyon 486,8 min manatlıq müxtəlif bitkiçilik və heyvandarlıq məhsulları istehsal edilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çoxdur. Həyata keçirilmiş meliorativ tədbirlər sayəsində müxtəlif kəndlərdə 339 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq əkin üçün yararlı hala gətirilib. Heyvandarlıq və arıçılıq kənd təsərrüfatında xüsusi çəkiyə malik olan sahələrdəndir. Hazırda rayonda 37 min 359 baş iribuynuzlu mal-qara, 137 min 28 baş xırdabuynuzlu heyvan, 358 arı təsərrüfatında 9 min 124 arı ailəsi vardır.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikasında müntəzəm davam etdirilən ekoloji siyasət təbiətin yaşıl örtüyünün qorunmasında və artırılmasında əhəmiyyətli rol oynayır. Şərurda iməciliklər yolu ilə aparılan yaşıllaşdırma tədbirləri çərçivəsində 5,25 hektar sahədə yeni meyvə bağları salınıb, 10 hektarda bərpa işləri aparılıb. Sahibkarlar tərəfindən isə 24,73 hektar sahədə müxtəlif növ meyvə tingləri əkilib. Rayonda üzümçülük ənənələrinin bərpa olunması üçün aparılan tədbirlər bəhrəsini verib, müxtəlif kəndlərdə 4 hektara yaxın üzüm bağı salınıb. Bu ilin yazında isə əkin materialı hazırlamaq məqsədilə 0,4 hektar sahəyə 40 min ədəd üzüm çubuğu basdırılıb. Hazırda həmin sahədə becərmə işləri davam etdirilir.

Rayon İcra Hakimiyyətinin başçısı əhalinin məşğulluğunun artırılması üzrə dövlət proqramının icrası istiqamətində görülən işlərdən də danışıb.

Sonra məruzə ətrafında müzakirələr aparılıb.



*Babək Rayon İcra Hakimiyyətində 2018-ci ilin birinci yarımilində görülən işlərin müzakirəsi, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi ilə bağlı keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov geniş məruzə ilə çıxış edib.*

Bildirilib ki, 2018-ci ilin birinci yarısı Babək rayonu üçün xüsusilə əlamətdar olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 16 fevral tarixdə "Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında" imzaladığı Sərəncam rayonun keçdiyi böyük quruculuq və inkişaf proseslərinə yüksək dövlət qayğısının ən parlaq ifadəsidir. Qəbul olunmuş dövlət proqramlarının uğurlu icrası nəticəsində bu il ucqar dağ və sərhəd kəndləri olan Aşağı və Yuxarı Buzqovda kompleks quruculuq işləri aparılır. Hesabat dövründə rayonda Ali Məclis Sədrinin iştirakı ilə Nehrəm kəndindəki "İmamzadə" türbəsi, eləcə də Şəkərabad kəndində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilib. Şəkərabad kəndi yaxınlığındakı hərbi hissə və Naxçıvan Beynəlxalq Hava Limanı da daxil olmaqla, 5 minə yaxın sakin içməli su ilə təmin olunub. Babək qəsəbəsində bir sıra dövlət orqanlarının yerləşəcəyi dördmərtəbəli inzibati binanın əsaslı surətdə yenidən qurulması, rayon elektrik şəbəkəsi üçün yeni inzibati binanın və 7 mərtəbəli 28 mənzilli yaşayış binasının tikintisi, həmçinin Babək qəsəbə məscidində təmir-bərpa işləri davam etdirilib. Süni Mayalanma Mərkəzinin və Asfalt Zavodunun tikintisi aparılır.

Qeyd olunub ki, Babək qəsəbəsi və ətraf kəndlərin içməli su, kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində rayonun Babək qəsəbəsi, Nehrəm, Araz kəndlərində içməli su və kanalizasiya xətlərinin, Badaşqan kəndində isə içməli su sistemlərinin çəkilişi və Yarımca kəndində içməli su anbarının tikintisi işləri davam etdirilir.

İcra başçısı vurğulayıb ki, 2018-ci ilin birinci yarısında ekoloji tarazlığın qorunması da diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə keçirilən iməciliklərdə yeni meyvə bağları salınıb, yol kənarlarında, qəsəbə və kəndlərdə yaşıllaşdırma işləri aparılıb, 6 ay ərzində rayon ərazisində 5 hektar sahədə yeni yaşıllıq zolağı salınıb, 8,1 hektar sahədə bərpa işləri aparılmaqla cəmi 13,1 hektar sahədə yaşıllaşdırma tədbirləri görülüb. Bu ərazilərdə 8300 ədəd ağac, kol və üzüm tingi əkilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

***2018-ci ilin birinci yarısında Culfa rayonunun sosial-iqtisadi inkişafı ilə bağlı İcra Hakimiyyətində keçirilmiş müşavirəni İcra Hakimiyyətinin başçısı Şükür Babayev açıb.***



Qeyd olunub ki, 2018-ci ilin birinci yarımilində Culfa rayonunda iqtisadiyyatın bütün sahələrində əldə olunmuş dinamik inkişaf tempi saxlanılıb, şəhər və kəndlərin hərtərəfli inkişafı təmin edilib, əhalinin rifah halının yüksəldilməsinə hesablanmış tədbirlərin genişləndirilərək şaxələndirilməsinə diqqət daha da artırılıb.

İcra başçısı vurğulayıb ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında qarşıya qoyulan vəzifələrin, verilən tapşırıqların icrası təmin olunmalı, əldə edilmiş sosial-iqtisadi inkişaf davam etdirilməlidir. Bunun üçün növbəti altı ayda da rayonda iqtisadi inkişafın əsas göstəricisi kimi makroiqtisadi sabitliyin möhkəmləndirilməsi diqqət mərkəzində saxlanılmalı, rayon büdcəsinin proqnoz göstəriciləri təmin edilməli, bütün tədiyə növləri üzrə vergi və rüsumların vaxtında ödənilməsinə nail olunmalıdır.

Bildirilib ki, son illərdə istifadəyə verilən yeni istehsal müəssisələri yeni iş yerlərinin açılmasına, məşğulluq səviyyəsinin yüksəldilməsinə, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına səbəb olub. Belə müəssisələrin yaradılması bundan sonra da diqqətdə saxlanılacaq, vətəndaşlar üçün daha əlverişli olan özünüməşğulluq sisteminə keçirilməsi, ailə təsərrüfatlarının yaradılması istiqamətində səylər artırılacaqdır.

İcra başçısı sessiyadan irəli gələn vəzifələrin icrası, mövcud nöqsanların aradan qaldırılması istiqamətində görüləcək işlərdən danışıb.

Müşavirədə müzakirə olunan məsələ ilə əlaqədar çıxışlar dinlənilib.

Kəngərli Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov məruzə ilə çıxış edib.

Bildirilib ki, Kəngərli rayonunda 2018-ci ilin ötən dövrü ərzində tikinti sektorunda sosial sahələr üstünlük təşkil edib, Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksi elmi və tarixi əsaslarla bərpa edilərək istifadəyə verilib, Qıvraq qəsəbəsindəki 7 mərtəbədən ibarət 48 mənzilli yaşayış binasında isə tikinti işləri davam etdirilir. Eyni zamanda qəsəbədəki "N" hərbi hissədə zabit-gizir ailələri üçün 44 mənzilli yeni yaşayış binasının, qəsəbənin mərkəzində salınan yeni istirahət parkının tikintisi, həmin ərazidə avtomobil yolunun genişləndirilməsi işləri sürətləndirilib. Bu ilin yanvar-iyun aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 25 milyon 248 min 300 manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın dəyəri bir il öncəyə nisbətən 1,4 faiz artaraq 23 milyon 985 min 900 manat təşkil edib.

Vurğulanıb ki, rayonda kənd təsərrüfatı sahələrinin inkişafı da diqqətdən kənarda qalmayıb.



Cari ilin altı ayı ərzində 14 milyon 138 min 700 manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz artım deməkdir. Rayon ərazisində 2018-ci ilin məhsulu üçün 8 min 665 hektar sahədə kənd təsərrüfatı məhsullarının əkini aparılıb. Hazırda cari ilin məhsulu üçün əkilmiş 4 min 706 hektar sahədə taxıl biçini uğurla davam etdirilməkdədir. Rayonda istehsal olunan meyvə-tərəvəz məhsullarının rahat şəkildə satışını təşkil etmək üçün məhsul istehsalçılarının rayon mərkəzində və Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı yarmarkalarında iştirakları təmin olunub. Bundan əlavə, 2018-ci ilin birinci yarımili ərzində yaşıllaşdırma tədbirləri davam etdirilib, 13,5 hektar sahədə meşəsalma, 5,6 hektar sahədə meşəbərpa işləri aparılıb, 10 min 235 ədəd ting salınıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Şahbuz rayonunda keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev çıxış edərək bildirib ki, 2018-ci ilin ötən dövründə də rayonun ayrı-ayrı yaşayış məntəqələrində quruculuq tədbirləri davam etdirilib.



Belə ki, Şahbuz şəhərində mədəniyyət evinin binasının, çirkab sutəmizləyici qurğular kompleksinin, Badamlı qəsəbəsində "Badamlı" Mineral Sular Zavodunun tikintisində işlər sürətlə aparılıb. Muxtar respublikanın kənd turizminin tətbiq olunduğu ilk yaşayış məntəqəsi olan Ağbulaq kəndində dağ və xizək turizminin inkişafı üçün kompleks tədbirlər görülür.

Ötən yarımildə 6 milyon 159 min 300 manatlıq sənaye məhsulu istehsal olunub ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur.

İqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 10048,3 min manat və ya 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çox vəsait yönəldilib.

Qeyd olunub ki, əhalinin əsas məşğulluq sahəsi olan aqrar sahənin inkişafına göstərilən dövlət qayğısı sayəsində bu sahəyə maraq xeyli artıb. Cari ilin yazında 207 hektar sahədə yaz əkini aparılmaqla, ümumilikdə, 1615 hektar sahədə taxıl əkini keçirilib. 435 hektarda kartof, 165 hektarda tərəvəz, 421 hektarda dənli və dənli-paxlalı, 10 hektarda bostan bitkiləri və 190 hektar sahədə digər əkinlər aparılıb.

Cari ildə yaşıllaşdırma tədbirləri davam etdirilib, rayonda keçirilən iməciliklər zamanı yeni yaşıllıq zolaqlarının salınması üçün sahələr hazırlanıb. Belə ki, 2,3 hektar sahədə yeni bağ salınıb, 1,2 hektar sahədə bərpa işləri aparılıb, yeni salınmış bağlara 2555 ədəd, bərpa olunmuş sahələrə 740 ədəd meyvə tingi, Şahbuz-Batabat magistral avtomobil yolunun kənarlarına 365 ədəd həmişəyaşıl, 728 ədəd meşə ağaclarının tingi əkilib.

2018-ci ilin birinci yarımilində rayon büdcəsinə plandan əlavə 28 min 581 manat çox vəsait daxil olub.

Vurğulanıb ki, əhaliyə və təsərrüfatlara məxsus əmlakın, maşın-mexanizmlərin, eləcə də işçilərin fərdi qəzadan sığorta olunması istiqamətində aparılan işlər diqqət mərkəzində saxlanıldığından cari ilin ilk 6 ayında rayon Dövlət Sığorta Agentliyi tərəfindən vətəndaşlarla bağlanmış 1358 müqavilə əsasında 51 min 470 manatlıq sığorta əməliyyatı aparılıb, ötən ilin müvafiq dövrü ilə müqayisədə 243 müqavilə, 4526 manat sığorta əməliyyatı artıq olub, 21 nəfər zərərçəkmişə 12 min 622 manat vəsait ödənilib.

İcra Hakimiyyətinin başçısı rayonda əhalinin sağlamlığının qorunması, iqtisadi baxımdan ən gəlirli sahələrdən biri olan turizmin inkişafı istiqamətində görülən tədbirlərdən də danışıb.

Sonra məruzə ətrafında çıxışlar olub.



Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələrlə bağlı Sədərək Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq məruzə ilə çıxış edib.

Qeyd olunub ki, rayondakı sosial-iqtisadi inkişafa, aqrar sahədə qazanılan uğurlara ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsi sayəsində nail olunub.

Naxçıvan Muxtar Respublikasında geniş vüsət alan tikinti-quruculuq işləri 2018-ci ilin ilk 6 ayı ərzində Sədərək rayonunda da davam etdirilib. Belə ki, rayon Tikinti-Quraşdırma İdarəsi tərəfindən 24,5 min manatlıq abadlıq və təmir işləri aparılıb. Heydərabad qəsəbəsində 48 mənzilli yaşayış binasının tikintisi davam etdirilir.

Vurğulanıb ki, bəhs edilən dövrdə rayonda 1085 hektar sahədə əkin keçirilib. Rayon üzrə 417 hektar sahədə tərəvəz, 190 hektarda bostan, 17 hektarda dən qarğıdalı, 24 hektarda günəbaxan, 103 hektarda kartof, 224 hektarda arpa, 37 hektarda paxlalı əkin və 73 hektar sahədə yeni yonca əkilib. 2018-ci ilin yaz əkinləri üçün 673 torpaq mülkiyyətçisinə 224 min 200 manat yardım edilib, 373 min 667 kiloqram güzəştli şərtlərlə gübrə verilib. Rayonda payız və yaz aylarında 2466 hektar sahədə taxıl əkini keçirilib, əkilən sahələrdən 7959 ton məhsul yığılıb, məhsuldarlıq 32,3 sentner təşkil edib.

İcra başçısı bildirib ki, rayon Suvarma Sistemləri İdarəsi tərəfindən bu ilin ilk 6 ayı ərzində 10 min 65 manat dəyərində əsaslı təmir işləri aparılıb, 8360 manatlıq material işlədilib və avadanlıq quraşdırılıb. Birinci yarımil ərzində rayonda 54 subartezian quyusu təmir olunub, 5 subartezian quyusuna isə yeni nasos qoyulub. Bu ilin birinci yarısında rayonda yaşıllaşdırma işlərinə də diqqət artırılıb, yolların bərpası və tikintisi istiqamətində də müəyyən işlər görülüb, poçt xidmətlərinin keyfiyyəti yaxşılaşdırılıb. Hesabat dövründə rayon məşğulluq mərkəzində 52 işaxtaran qeydiyyata alınıb və həmin vətəndaşlardan 51-i daimi işlə təmin edilib.

Diqqətə çatdırılıb ki, rayonun sosial-iqtisadi inkişafı üçün imkanlardan maksimum istifadə edilərək daha yüksək nəticələr əldə olunacaq. Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi təmin ediləcək.

Müşavirə məruzə ətrafında çıxışlarla davam edib.

**Xəbərlər şöbəsi**

# "Muzey günləri" davam edir



Muzeylər elə ünvanlardır ki, buraya üz tutanlar mənsub olduqları xalqın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında mütləq yeni məlumatlar əldə etmək imkanı qazanırlar. Bu amil nəzərə alınaraq muxtar respublikada keçirilən "Muzey günləri"ndə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, müxtəlif təşkilatların əməkdaşları muzeylərə gedir, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlarla tanış olurlar.

İyulun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində olublar. Məlumat verilib ki, son illər muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib, mədəni irsimizin qorunması işinə diqqət artırılıb. Muxtar respublikada xalçaçılıq sənətinin yaşadılması istiqamətində görülən işlər bu sahə üzrə yeni elmi araşdırmaların aparılmasına stimul olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin edilib, 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub. Ötən dövr ərzində muzeyə verilən xalça məmulatlarının sayı xeyli artıb. Bir neçə gün əvvəl "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti tərəfindən muzeyə Şərur rayonunun Günnüt kəndində toxunmuş 6 xalça məmulatı verilib.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsini, Ədliyyə Nazirliyinin və Penitensiar Xidmət Aparatının kollektivi Heydər Əliyev Muzeyini, Ali Məhkəmə, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşmış məhkəmələrin kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Hərbi Prokurorluq və Naxçıvan Şəhər Prokurorluğunun kollektivləri Dövlət Bayrağı Muzeyini, Dövlət Gömrük Komitəsinin kollektivi Nəbatat bağını, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının kollektivi Rəsm Qalereyasını, Maliyyə Nazirliyinin kollektivi Cəlil Məmmədquluzadənin ev-muzeyini, Fövqəladə Hallar Nazirliyinin və struktur qurumlarının kollektivləri Qarabağlar Türbə Kompleksini, Daxili İşlər Nazirliyinin kollektivi Ədəbiyyat Muzeyini, Dövlət Təhlükəsizliyi Xidmətinin kollektivi Dövlət Tarix Muzeyini, Kənd Təsərrüfatı Nazirliyinin kollektivi "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini, İqtisadiyyat Nazirliyinin kollektivi Xatirə Muzeyini, Vergilər Nazirliyinin kollektivi Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksini, Təhsil Nazirliyinin kollektivi Duz Muzeyini, Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Dövlət Baytarlıq Xidmətinin kollektivləri Naxçıvan Biznes Mərkəzini ziyarət ediblər.

Muxtar respublikanın rayonlarında fəaliyyət göstərən idarə, müəssisə, təşkilatların nümayəndələri də muzeylərdə olublar.

✍ Muxtar MƏMMƏDOV

***Ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekologiyanın mühafizə olunaraq gələcək nəsillərə ötürülməsi də məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin hələ ölkəmizə birinci rəhbərliyi dövründə ətraf mühitin mühafizəsi məsələlərinə dövlət səviyyəsində düzgün münasibət göstərilib, ekoloji strategiyanın formalaşdırılması sahəsində mühüm addımlar atılıb, bu sahədə qanun, fərman və qərarlar qəbul edilərək uğurla icra edilib.***

*Yaşıl guşə*

# Təbiətimiz sağlam gələcəyimizin təminatçısıdır





Görkəmli dövlət xadiminin apardığı məqsədyönlü siyasətin bəhrələri Naxçıvanda da özünü qabarıq şəkildə göstərib. Belə ki, 1969-cu ildə ulu öndərin təşəbbüsü ilə ümumi ərazisi 40 min hektar olan Ordubad Dövlət Təbiət Yasaqlığı həyata vəsiqə alıb. Ölkə ərazisində ilk Milli Park qədim diyarda yaradılıb. Azərbaycan Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə respublikamızda ilk milli park – ərazisi 12 min 131 hektar olan Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı və ərazisi 3 min 139 hektar olan Şahbuz Dövlət Təbiət Qoruğu yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr və 2009-cu il 22 iyun tarixli sərəncamları ilə "Arazboyu" və "Arpaçay" Dövlət Təbiət yasaqlıqları fəaliyyətə başlayıb. Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasında əsas məqsədlərdən biri də mövcud təbii potensialdan istifadə etməklə ekoturizmin inkişaf etdirilməsinə nail olmaqdır. Hazırda milli park statuslu təbiət obyektlərinin yaradılması müasir dövrümüzün tələblərinə cavab verir. Bu amil əsas götürülərək ölkə Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə ümumi ərazisi 42 min 787 hektar olan Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı yaradılıb.

Bəs bu gün mühafizə olunan ərazilərdə ekoloji vəziyyət necədir? Görülən tədbirlərin fauna və floramızın zənginləşməsinə nə dərəcədə təsiri olub? Bu və ya digər suallara cavab tapmaq üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Elçin Kazımovla həmsöhbət olduq. O dedi ki, 2001-ci ildən etibarən ova məhdudiyyətlərin qoyulması və yem ehtiyatının çoxalması bir sıra heyvan növlərinin sayının artmasına, yaxın ölkələrdən bu ərazilərə yeni növlərin miqrasiya etməsinə, burada məskunlaşmasına əlverişli imkanlar açıb. Muxtar respublika ərazisində dünyanın nadir növlərindən olan bəbirlərin yaşaması da deyilənləri təsdiqləyir. 2016-cı ildə müşahidə kameralarının köməkliyi ilə Naxçıvan ərazisində bəbirlərin ailəvi şəkildə məskunlaşması müəyyən edilib. Bu sahədə aparılan tədqiqat və müşahidələr digər növlərin də artdığını deməyə əsas verir. Ümumi ərazinin 28 faizə qədərinin xüsusi mühafizə olunması, digər sahələrdə mühafizə və bərpa tədbirlərinin görülməsi də faunamızın zənginləşdirilməsində başlıca rol oynayır.

Təbiət ərazilərində mövcud olan bitki və heyvan ehtiyatlarının qorunması sahəsində görülən mühüm işlərdən biri də nadir və nəsli kəsilmək təhlükəsi olan növlərin geniş şəkildə öyrənilməsi, qeydiyyatının aparılması və mühafizəsinin təşkil edilməsidir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət "Qırmızı kitab" çap edilib.

Elçin Kazımov onu da bildirdi ki, görülən işlərin nəticəsi olaraq son 20 ildə fauna ehtiyatlarımızın müxtəlif növlər üzrə 15-20 faiz artımı müşahidə edilib. Müqayisə üçün bildirək ki, 1970-ci illərdə sayı tükənməkdə olan bezoar dağ keçilərinin, muflonların sayı ötən dövr ərzində dəfələrlə artıb. Hazırda onlar sürülər şəklində müşahidə edilir. Dünya təbiətinin nadir növləri hesab olunan Qafqaz bəbir ailəsinin Naxçıvan ərazisində yaşaması, bir çox nadir quş növlərinin, xüsusilə dünyada son illər sayı azalan qartal növlərinin qeydə alınması böyük ekoloji faktordur. Bunlarla yanaşı, muxtar respublika ərazisində 241 növ quş məskunlaşıb ki, bu da ölkə arnitofaunasının 63,8 faizini təşkil edir. Həmçinin ölkə ərazisində yayılmış 107 məməli heyvan növünün 62 növü muxtar respublika ərazisində yaşayır. Ümumilikdə, ölkə ərazisindəki fauna ehtiyatlarının 60 faizdən çoxu muxtar respublika ərazisində yayılıb.

Bu gün faunamızın qorunması istiqamətində atılan addımlar və xüsusilə ova məhdudiyyətlərin qoyulması mühafizə edilən ərazilərə yaxın yerdə yaşayan sakinlər tərəfindən də razılıqla qarşılanır. Onların bir neçəsi ilə görüşüb həmsöhbət olduq, məsələ ilə bağlı fikirlərini öyrəndik.

Ordubad rayonunun Nəsirvaz kənd sakini Cahangir Rzayev dedi ki, muxtar respublikamızda təbiətin mühafizəsinin vəziyyəti ürəkaçandır. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması rayon sakinlərini çox sevindirib. Bu cür mühafizə edilən yerlərin olması sakinlərin təbiət qoynunda rahat şəkildə istirahətinə imkan verir.

Digər bir həmsöhbətim Şahbuz rayonunun Biçənək kənd sakini Duman İmamaliyev də qoruq ərazisinə yaxın yerdə yaşayır. Bu barədə dediklərindən:

– Təbiət həyatımızın ayrılmaz parçasıdır. Biz ömrümüzün sonunadək ondan faydalanırıq. Vəhşi heyvanların da doğma evi məhz meşələr, yaşıllıq ərazilərdir. Bəzi insanlar heyvanlara laqeyd münasibət göstərir, onları ovlayırlar. Əvvəllər əlinə ov silahı alan dağlara çıxar, nadir heyvanları belə, ovlayardı. Bu hal dəri alverçiləri üçün də yaxşı qazanc yeri yaratmışdı. Onlar ən sıx yerlərdə tələ qurur, heyvanları şikəst edirdilər. İndi çox şükür ki, belə neqativ halların qarşısı alınıb. Ova məhdudiyyətlər qoyulub, tələ quranlar, heyvanlara, quşlara qənim kəsilənlər öz layiqli cəzalarını alıblar. Təqdirəlayiq haldır ki, indi bu sahəyə nəzarət yüksək səviyyədədir. Əminliklə demək olar ki, görülən tədbirlər öz bəhrəsini verir, faunamız ilbəil daha da zənginləşir. Buna görə də dövlətimizə minnətdaram.

Bu gün hamımız ətraf mühitə qarşı həssas olmalı, canlıların qayğısına qalmalı, bu işdə dövlətimizə dəstək olmalıyıq. Sevindirici haldır ki, muxtar respublikada aparılan maarifləndirmə tədbirləri nəticəsində ətraf mühitin mühafizəsi mədəniyyəti formalaşıb. Bu da doğma diyarımızın flora və faunasının zənginləşməsinə öz əhəmiyyətli təsirini göstərməkdədir.

✍ Nail ƏSGƏROV

*Gəncliyimiz, gələcəyimiz*

# Ordubadlı məzunlar qəbul imtahanlarında uğurlu nəticələr göstəriblər

Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda milli təhsilimizin hərtərəfli inkişafı üçün sistemli tədbirlər həyata keçirilir. Görülən genişmiqyaslı işlərin, atılan məqsədyönlü addımların nəticəsidir ki, hər keçən gün bu sahədə yüksək nailiyyətlər qazanılır, uğurlu göstəricilər əldə olunur. Muxtar respublikamızın əksər orta ümumtəhsil müəssisələrində olduğu kimi, Ordubad rayonunun da bir çox məktəblərinin məzunları ali məktəblərə builki qəbul imtahanında müvəffəqiyyətlə iştirak ediblər. Rayonun bütün məktəbləri üzrə ən yüksək nəticəni Gənzə kənd tam orta məktəbinin məzunu *Sunay Rzayeva* əldə edib. Qəbul imtahanında III ixtisas qrupu üzrə iştirak edən abituriyent 685 bal toplayıb. Söhbət zamanı Sunay sevincini bizimlə bölüşərək dedi ki, 1-ci sinifdən 11-ci sinfə qədər əlaçı olub. Fənlər arasında fərq qoymayıb, bütün dərsləri eyni qaydada oxumağa çalışıb. Lakin Azərbaycan dili, ədəbiyyat, tarix fənlərinə daha çox marağı olduğundan doqquzuncu sinifdə III ixtisas qrupu üzrə hazırlaşmaq qərarına gəlib. Onun dediklərindən: "Fikrimcə, yaxşı nəticə əldə etmək üçün ən birinci özünə inanmaq vacibdir. Daha sonra dərs bölgüsünü düzgün etmək, vaxtında yatmaq və bütün fikrini dərslərə yönəltmək lazımdır. Hələ ki, universitet və fakültə seçimini etməmişəm. Amma çox şadam ki, məqsədimə nail oldum. Bunun üçün müəllimlərimə və valideynlərimə minnətdaram".



Bu tədris ilində uğurlu göstəriciləri ilə seçilən digər təhsil ocağı isə Məhəmməd Füzuli adına Ordubad şəhər internat tam orta məktəbi olub. Məktəbin direktoru Musa Ağayevin sözlərinə görə, bu il qəbul imtahanında 15 məzun iştirak edib və onların hər biri müvəffəqiyyət qazanıb. Məzunlardan 5-i 500-700 intervalında bal toplayıb. Onlardan ən yüksək bal toplayan *Fərhan Məmmədov* 647 balla əldə etdiyi uğurla məktəb kollektivinin sevincinə səbəb olub. II ixtisas qrupu üzrə imtahan verən Fərhanla söhbət zamanı, dedi ki, uğur qazanmaq üçün əvvəlcə hədəfin olmalı, qarşıya real məqsəd qoymalısan. Bunun üçün isə oxumaq mühüm şərtlərdən biridir. Çünki düşünürəm ki, həyatda bütün müvəffəqiyyətlərin açarı bilikdə, elmdədir. İlk hədəfimə çatdığım üçün çox sevincliyəm. Bunun üçün üzərimdə zəhməti olan bütün müəllimlərimə minnətdaram.



Rayonun yüksək nəticə göstərən təhsil ocaqlarından biri də Ordubad şəhər 1 nömrəli tam orta məktəbidir. Məktəbin direktoru Könül İsmayılova ilə söhbət zamanı öyrəndik ki, bu tədris ilində təhsil ocağını 21 məzun başa vurub. Onlardan 20-si qəbul imtahanında iştirak edib və 15-i tələbə adına real namizəddir. Məzunlardan 5-i 500-700 intervalında bal toplayıb. Onlardan ən yüksək nəticə əldə edən *Səidə Məmmədli* isə 653 bal toplayaraq həm valideynlərinin, həm də məktəb kollektivinin sevincinə səbəb olub. Uşaqlıqdan Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisasında təhsil almaq arzusunda olan Səidə Məmmədli deyir ki, zəhmət və inam varsa, irəliyə doğru addımlamaq elə də çətin deyil. Bu gün arzuma çatmağımdan çox valideynlərimin və müəllimlərimin sevincinə səbəb olduğum üçün sevinirəm. Bu yolda mənə hər zaman dəstək olan müəllimlərimə və valideynlərimə sonsuz minnətdaram.



Yüksək nəticə əldə edən təhsil müəssisələrindən biri olan Ordubad şəhər 3 nömrəli tam orta məktəbinin direktoru Əliağa Rzayevlə söhbətimiz zamanı bildirdi ki, bu tədris ilində məktəbin 25 məzunu olub. Onlardan 22-si ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edib, 17-si ali təhsil almaq şansı qazanıb. 4 abituriyent 500-700 intervalında bal toplayıb. Məktəb üzrə ən yüksək nəticəni *Nübar Cəlilova* göstərib. III ixtisas qrupu üzrə imtahanda 626 bal qazanan Nübar Cəlilova bildirdi ki, qəbul imtahanlarına iştirak üçün iki fürsət verilməsi abituriyentlərin ürəyincədir. Çünki mənim kimi öz nəticəsindən razı qalmayan abituriyentlər ikinci dəfə özlərini sınaya bilirlər. İlk imtahandan 565 bal toplayan Nübar deyir ki, hədəfimə çatmaq üçün ikinci imtahan üçün nəzərdə tutulan zaman ərzində səylə çalışdım və 626 balla daha böyük müvəffəqiyyət əldə etdim.



*Bəli, muxtar respublikamızda təhsilə göstərilən dövlət qayğı nəticəsində hər il ali təhsil müəssisələrinə qəbul olunan məzunlarla yanaşı, 500-700 arası bal toplayanların da sayı artır. Bu isə hər birimizin gələcəyə nikbin baxmasına inam yaradır. Çünki cəmiyyətin gələcək tərəqqisi ağıllı, bilikli gənclərin əlindədir.*

✍ Gülcamal TAHİROVA

*Xalq yaradıcılığı*

# Naxçıvanın mənəvi emblemi




***Qədim tarixə və mədəniyyətə malik olan Naxçıvan daş abidələri, zəngin arxeoloji maddi-mədəniyyət nümunələri ilə yanaşı, həm də mədəniyyətimizin incisi və ən qədim növü sayılan folklor rəqsləri – yallıları ilə tanınır. Min illərin, əsrlərin süzgəcindən keçərək bu günümüzədək gəlib çatan bu rəqslər onun nə qədər mənəvi zənginliyə malik olduğunu göstərir. Bu mənada, yallını "Naxçıvanımızın qədimlik rəmzi", "Oğuz möhürü" adlandıranlar heç də yanılmırlar. AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli də bu qənaətdədir ki, yallılar qədim Oğuz yurdunun möhürü olub:** "Harada yallı olubsa, yaxud da indi yallı rəqsi geniş yayılıbsa, oralar qədim Oğuz-türk yurdu olub".*





Yallılar ölkəmizi dünyaya tanıdan, xalqımıza məxsus bütün xüsusiyyətləri, onun kimliyini, tarixini, mədəniyyətini aydın şəkildə çatdıran milli rəqsimizdir. Birlik və bərabərlik rəmzi hesab edilən, insanın fikir və düşüncə tərzinin, özünüdərkinin məhsulu olan, yaradanla yaranmışın arasında əlaqə vasitəsi rolunu oynayan yallı, təxminən, 8-10 min il bundan əvvəl yaranıb. Tədqiqatçıların fikrincə, ilk yallı oyunları od-ocaq ətrafında toplanan mərasimlərdən ibarət olub. Sonralar isə ovun, döyüşün uğurlu olmasını arzulayan, ovsuna, tilsimə arxalanan, fövqəltəbii qüvvələrə and vermək istəyənlər özlərinin bu düşüncələrini mərasimlərdə təqlid və təsvir yolu ilə ifadə ediblər. İnsanların ictimai həyat tərzinin, bədii-estetik zövqünün ayrılmaz tərkib hissəsinə çevrilmiş yallılarda yadelli, hiyləgər düşmən üzərində qətiyyətli mübarizə, baharın gəlişi və digər həyativacib məsələlər də öz əksini tapıb. Bu deyilənləri tariximizin ən böyük daş kitabələri olan Qobustan və Gəmiqaya qayaüstü rəsmləri də sübut edir.

İnsanların həyat tərzi, məişəti, dünyabaxışı dastanlarda sözlə-fikirlə ifadə olunursa, yallılarda isə bu rəqslə, ritmik hərəkətlərlə izah edilir. Hər bir yallı növü xüsusi məna və məzmun daşımaqla xalqımızın yaşam tərzini, adət-ənənəsini, mübarizliyini, qorxmazlığını, həmişə haqqa-ədalətə və sülhə can atmasını özündə əks etdirib.

Bu gün Naxçıvanın bir sıra bölgələrinin, xüsusilə də Şərur toylarını, bayram tədbirlərini, xalq şənliklərini, konsert proqramlarını yallısız təsəvvür etmək çətindir. Hətta deyiləndə görə, burada elə kəndlər var ki, onun sakinləri arasında yallı oynamağı bacarmayanlar barmaqla sayılası qədərdir. Yallı həm də bu yerlərin musiqi rəmzinə çevrilib. Yallıda əl-ələ tutub coşqunluqla ünsiyyətdə olan insanlar öz ritmik hərəkətləri ilə ətrafdakılara da olduqca xoş təsir bağışlayırlar.

Xalqımızın kütləvi rəqslərindən olan yallılar çeviklik, mətanət və zəhmət tələb edir. Ən yaxşı oynayanlar içərisindən seçilən yallıbaşı bütün rəqsi idarə edir. Yallıbaşının əlində yaylıq olur. Cərgədə iştirak edənlərin hamısı onunla birlikdə hərəkət edirlər. Yallıların bəzilərinin adı çox maraqlıdır. Məsələn, yallıya verilmiş "iki ayaq", "üç ayaq", "dörd ayaq" kimi adlar yallıların xoreoqrafiyasına, rəqsin ikiaddımlı, üçaddımlı, dördaddımlı ünsürlərdən ibarət olmasına dəlalət edir.

Əvvəllər bu rəqslər dörd tempdə ifa olunar, aram, ağır hissə ilə başlar, tempi tədricən yeyinləşərdi. Sonradan isə yallılar üç cür – ağıraram, yüngül-şən və yeyin ifa edilməyə başlanıb.

Bu gün muxtar respublikamızda 40-dan çox yallı oynanılır. "Xələfi", "Tənzərə", "Köçəri", "Höynəri", "Qaleyi", "Qazı-qazı", "Sareyi", "Şahgəldi", "Tello", "Söylə", "Nazilə", "Qızılbaş", "Çökəli", "Çaleyi", "Göyçəməni", "Hərilli", "Xəlili", "Əfsəri", "Bəndi", "Sındırma", "Şərili", "Tirməşal", "Urfanı", "Gilanı", "Kərimbəy", "Nuraşan", "Baharı" və başqa yallılarımız bir elin həm tarixini, həm də əcdadlarımızın həyat ritmini, sevincini, hər kəsi Vətən uğrunda birliyə, döyüşə çağıran ruhunu özündə yaşadır.

Rəqslər içərisində hər fəslin və mərasimin, hər coğrafi ərazinin özünəməxsus yallısı vardır. Şərur yallıları nəinki ölkəmizdə, hətta bir sıra dünya ölkələrində də maraqla izlənilir və sevilir. Bəzi yallılar da var ki, onlar musiqisiz ifa olunur. Belələrinə "dil yallısı" deyilir. Çünki bunlar hələ musiqi alətləri icad edilməmişdən əvvəl düşünülmüş oyunlardır. Tədqiqatçılar onların çalğı alətlərinin mövcud olmadığı vaxtlarda yarandığını ehtimal edirlər.

Xoreoqrafiya məzmununa görə isə yallılar iki növə ayrılır: süjet və rəqs tipli. Süjetli oyunlar müəyyən hadisəni təsvir edir və teatrlaşmış xalq oyunlarına bənzəyir. Bu rəqslərdə zarafat, gülüş üstünlük təşkil etsə də, digər yallılarda ifa və yeriş elementləri diqqəti çəkir. "Tənzərə", "El yallısı", "Gopu", "Qazı-qazı", "Köçəri", "Urfanı", "Qaladan-qalaya" belə yallı nümunələrindəndir.

Ötən əsrin 70-ci illərindən milli folklor rəqslərinin tədqiqi və təbliği istiqamətində əsaslı və ardıcıl tədbirlər görülüb. Bu səbəbdən də unudulmaqda olan yallı növlərimizin bir çoxu yenidən həyata qaytarılıb. "Hoynərə", "Dönə" kimi yallıları buna misal göstərmək olar.

Yallının ən qədim növlərinin yayıldığı Şərur bölgəsində insanların döyüş əhval-ruhiyyəsini, cəsarət və mübarizliyini əks etdirən "Qaladan-qalaya", dəvəyə tərif olaraq deyilən, dəvə karvanının yerişini, hərəkətini təcəssüm etdirən "Hoydu, nərim", yeddihecalı bayatının səsləndirildiyi "Arzumanı" yallıları da geniş yayılan qədim sənət nümunələrindəndir. Qeyd edək ki, barış rəmzi hesab olunan yallı ifaçılarının sayı 10-15 nəfərdən 80-100 nəfərədək olur.

Muxtar respublikamızda "Şərur" Xalq Yallı Ansamblı, Şərur Rayon Mədəniyyət Evinin "Şərur qönçələri" yallı ansamblı, Babək Rayon Mədəniyyət Evinin "El yallıları", Ordubad Rayon Mədəniyyət Evinin "Nuray", Kəngərli Rayon Mədəniyyət Evinin "Gülümhey" yallı qrupları və digər yallı kollektivləri fəaliyyət göstərir, onlar keçirilən müxtəlif tədbirlərdə, konsertlərdə fəal iştirak edirlər.

***"Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. Yallını qoruyub-saxlayın. Bu, Naxçıvanın tacıdır"**, – deyən ulu öndər Heydər Əliyevin ideyalarını sədaqətlə davam etdirən muxtar respublikamızda yallıların yaşadılması və təbliği istiqamətində bu gün müxtəlif tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı yurdumuzun qədim sakinlərinin, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahür forması olan folklorun, musiqi və rəqs sənətinin təbliği və tədqiqini zəruri etməklə, həm də yallı sənətini yaşadıb gələcək nəsillərə çatdırmaq, unudulan rəqslərimizi bərpa etmək, mənəvi sərvətimizi yad elementlərdən qorumaq və repertuarımızı daha da zənginləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Şənbə konsertləri davam edir

Ötən şənbə Naxçıvan şəhərinin Saat meydanında növbəti konsert təşkil olunub. Tədbirdə bildirilib ki, "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" tədbirləri çərçivəsində konsert proqramı ilə çıxış edəcək Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin "Şəlalə" instrumental ansamblı 15 ildən çoxdur ki, fəaliyyət göstərir. Ansambl repertuar zənginliyinə diqqət yetirməklə ictimaiyyət qarşısında və hərbi hissələrdə, müxtəlif tarixi və əlamətdar günlərlə bağlı keçirilən tədbirlərdə konsert proqramları ilə çıxış edir. Ansamblın bədii rəhbəri Əli Məmmədovdur.



Şənbə konserti ansamblın ifa etdiyi "Çahargah" kompozisiyası ilə başlayıb. Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Xatirə Səfərova və Arzu Fərzəliyevin ifa etdikləri şən və lirik mahnılar konsert iştirakçılarında xoş ovqat yaradıb.

Solistlərdən Qəmər Babayeva, Ədalət Hüseynov, Səyavuş Nəcəfov, Bəhruz Quliyevin ifa etdikləri "Dədə Qorqud", "Ögey ana", "Yenilməz batalyon", "Əzablı yollarla", "Baladadaşın ilk məhəbbəti" kimi kinofilmlərimizdəki mahnılar da alqışlarla qarşılanıb. Konsertdə ansamblın ifasında instrumental musiqilər də səslənib.

Bir saatdan artıq davam edən konsert Naxçıvan şəhər sakinləri və qonaqlar tərəfindən maraqla qarşılanıb.

**Əli RZAYEV**

## Futbol üzrə şəhər və rayon birinciliklərinə start verilib



Naxçıvan Muxtar Respublikasında idmanın kütləvi hal alması üçün mütəmadi olaraq yeni idman obyektləri, zallar, futbol meydançaları tikilib istifadəyə verilir. Şəhər və rayonlarla yanaşı, xüsusilə kəndlərdə də əhalinin sağlamlığı üçün idman bazalarının formalaşdırılması daim diqqət mərkəzində saxlanılır. Futbolun inkişafı üçün əlverişli şəraitin olması və yeni stadionların yaradılması gəncləri bu sahəyə daha çox cəlb edir.

Yaradılan bu şəraitdən məqsədyönlü şəkildə istifadə edən Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə onlardan ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birinciliyinə start verilib. Sentyabr ayının 8-dək hər həftənin şənbə günü oynanılacaq oyunlar olimpiya sistemi üzrə keçiriləcək. Görüşlər Naxçıvan şəhəri üzrə İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbinin stadionunda, Şərur rayonu üzrə Aralıq kənd, Babək rayonu üzrə Babək qəsəbə, Nehrəm və Vayxır kənd, Ordubad rayonu üzrə Kələntər kənd, Culfa rayonu üzrə Ərəzin kənd, Şahbuz rayonu üzrə Kolanı kənd və Şahbuz şəhər stadionlarında, Kəngərli, Sədərək rayonlarında isə rayon mərkəzi stadionlarında olmaqla, muxtar respublika üzrə 11 stadionda təşkil ediləcəkdir. Şəhər və rayon üzrə birincilik uğrunda Naxçıvan şəhəri üzrə 5, Şərur rayonu üzrə 13, Babək rayonu üzrə 8, Ordubad rayonu üzrə 8, Culfa rayonu üzrə 8, Kəngərli rayonu üzrə 6, Şahbuz rayonu üzrə 9, Sədərək rayonu üzrə isə 4 olmaqla, ümumilikdə, 61 kəndin futbol komandası yarışacaqlar.

Artıq birinciliyin ilk oyunları keçirilib. Belə ki, Naxçıvan şəhəri üzrə Qaraçuq komandası Tumbul (10:1), Şərur rayonu üzrə Mahmudkənd komandası Oğlanqala (8:1), Babək rayonu üzrə Kərimbəyli komandası Qahab (3:2), Culfa rayonu üzrə Ərəzin komandası Bənəniyar (7:3), Ordubad rayonu üzrə Sabirkənd komandası Dəstə, (3:2), Şahbuz rayonu üzrə Badamlı komandası Şahbuz (6:2), Sədərək rayonu üzrə isə Sədərək komandası Heydərabad komandaları (4:1) üzərində qələbə qazanaraq növbəti mərhələyə yüksəliblər.

Qeyd edək ki, şəhər və rayonlar üzrə I, II, III yerləri tutmuş komandalar kubokla, həmin komandaların üzvləri və oyunu idarə edən hakimlər Gənclər və İdman Nazirliyi tərəfindən mükafatlandırılacaqlar.

✍ **Ceyhun MƏMMƏDOV**

## İdmançımız Avropa birinciliyinin ikiqat qalibi olub



Bu il 22-29 iyul tarixlərində İtaliyanın Milan şəhərində 40-a yaxın ölkədən 388 atletin iştirakı ilə 15 və 17 yaşa qədər yeniyetmə oğlan və qızlar arasında ağır atletika üzrə Avropa birinciliyi keçirilib.

Birincilikdə Azərbaycan yığmasının üzvləri də öz güclərini sınayıblar. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində olan Şərur rayon Ağır atletika bölməsinin yetirməsi Tamerxan Babayev də turnirdə iştirak edib. O, yaşı 17-yə qədər olan oğlanlar arasında 94 kiloqram çəki dərəcəsində mübarizə aparıb. Ötən il Kosovonun paytaxtı Priştinada 6 Avropa rekordunu yeniləyərək çempion olan atletimiz bu dəfə də qələbə əldə edib. Birdən qaldırma hərəkətində 145 kiloqram nəticə göstərərək gümüş medala layiq görülən idmançımız təkanla qaldırmada 180 kiloqram nəticə göstərməklə bütün rəqiblərini üstələyərək qızıl medal qazanıb. Ümumilikdə, 325 kiloqram (145+180) nəticə ilə 94 kiloqram çəki dərəcəsində yekun sıralamada fəxri kürsünün ən yüksək pilləsinə qalxmış Tamerxan Babayev Avropa birinciliyinin ikiqat qalibi adını qazanıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 548